# Narkomaniyaya yox dey k adlı maarifl ndirm  t dbiri

Yazan Rəhbərlik
28.11.19 21:59 - axırıncı dəyişikliklər 29.11.19 11:53




Noyabrın 26-da ADPU-nun Şəki Filialında "Narkomaniyaya yox deyək!" adlı maarifləndirmə tədbiri keçirilib. Tədbirdə Azərbaycanda Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının, Şəki Şəhər İcra Hakimiyyətinin əməkdaşları, Şəki Şəhər Gənclər və İdman İdarəsinin rəisi Vüqar İsgəndərov, filialın professor-müəllim heyəti və tələbələr iştirak ediblər. Şəki Şəhər İcra Hakimiyyətinin Hüquq şöbəsinin müdiri Əhmədiyyə Bəşirov əvvəlcə tədbirin təşkil olunmasının məqsədi barədə iştirakçılara məlumat verib. Sonra Azərbaycanda Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının əməkdaşı, baş məsləhətçi Raqif Allahverdiyev narkomanlıq, onun fəsadları barədə geniş məruzə ilə çıxış edib, reallıqlardan və problemin cəmiyyət üçün ciddi təhlükə olmasından ətraflı söhbət açıb. Sonra Şəki Şəhər Gənclər və İdman İdarəsinin rəisi Vüqar İsgəndərov, filialın Ümumelmi fənlər kafedrasının müdiri, dos. Sədrəddin Bədiyev çıxış edərək məsələ ilə bağlı öz fikirlərini bildirib, gəncləri ayıq və hər çür neqativ hallara qarşı barışmaz olmağa çağırıblar. Tədbirdə mövzu ilə bağlı tələbələri maraqlandıran suallar cavablandırılıb. Canlı diskussiya şəklində keçən tədbirin sonunda filialın tədris işləri üzrə direktor müavini, dos. Gülarə Abdullayeva çıxış edərək tədbirin aktual bir mövzuya həsr olunduğunu vurğulayıb, maarifləndirmə tədbirində iştirak edən qonaqlara, məruzəçiyə təşəkkürünü bildirib.




ƏN DOĞRU SEÇİM
ETMƏMƏKDİR!
ADPUShekifiliali


SPICE BONZAI
ADPUShekifiliali


Heroin
Bu nədir?
ADPUShekifiliali


ADPUShekifiliali


ADPUShekifiliali